**Məmmədov, N.** Milli tarixmizin qüruru və şərəfi // Respublika. - 2025. - 28 may. - **№ 110**. - S. 15.

XX yüzilliyin birinci rübündə Azərbaycan xalqının yaradıcı təfəkkür və düşüncə tərzinin, onun inqilabi mübarizə və milli azadlıq hərəkatının ən böyük nailiyyəti özünün müstəqil milli dövlətini və dövlətçiliyini bərpa etmək fikri və onu əməli sürətdə həyata keçirmək əzmi və qətiyyətidir. Cəmi 23 ay ömür sürmüş Azərbaycan Xalq Cümhuriyyəti tarixinin hər bir anı heç bir qiymət vahidi ilə ölçülə bilməyəcək tükənməz xəzinədir və zəngin həyat məktəbidir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı Sərəncamda deyilir: "Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır".

Beş min illik dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının müstəqillik və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi uğrunda aparılan mübarizənin və onun qəhrəmanlıq epopeyasının zəngin dövrləri və mənalı səhifələri çoxdur. Xalqımızın, tariximizin belə şərəfli dövrlərindən biri də1918-1920-ci illəri əhatə edən Şərq dünyasında ilk Demokratik Respublika, Türk dünyasında ilk parlamentli Respublika olan və Avropa ölkələrinin demokratik prinsiplərini özündə əks etdirən Azərbaycan Xalq Cümhuriyyətinin tarixidir. Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının banisi Heydər Əliyev demişdir: "Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir. Biz bu varislik prinsipini şərəflə, sədaqətlə yerinə yetiririk".

XX yüzilliyin əvvəllərində görkəmli Azərbaycan ziyalılarının rəhbərliyi ilə xalqımız demokratik və bəşəri dəyərlər sayəsində özünün dövlətçiliyini bərpa etmək, dünyanın yeni inkişaf ahənginə uyğun olan demokratik idarəçilik sistemi yaratmaq uğrunda mübarizə aparırdı və bu mübarizə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə nəticələndi. AXC-nin yaranması xalqımızın tarixi taleyində çox böyük əhəmiyyətə malik oldu, Azərbaycan dövlətçiliyinin yeni və parlaq inkişaf dövrü başlandı. Tarixdə bir daha sübut olundu ki, çar Rusiyası Azərbaycanda erməni-daşnak qüvvələrinin əli ilə nə qədər qırğın və soyqırım siyasəti aparsa da, xalqımızın iradəsi sınmadı və dövlətçilik ənənələrini məhv edə bilmədi. Çünki xalqımız tarix boyu idarə olunmağa yox, idarə etməyə öyrənmiş və həmişə müstəqil dövlətdə yaşamağa qadir xalqdır. Xalqımız milli

mənlik şüurunu və qədim dövlətçilik ənənələrini yenidən dirçəltdi, çox çətin mürəkkəb tarixi şəraitdə müstəqil dövlətini yarada bildi.

İstiqlal Bəyannaməsi ilə elan edilən Azərbaycan Xalq Cümhuriyyəti bütün müsəlman dünyasında ilk demokratik respublika idi və o Azərbaycan xalqının qədim dövlətçilik ənənələrini bərpa etdi, insan hüquqlarının və azadlıqlarının təmin edilməsinə, irqi, milli, dini, sinfi və digər sosial bərabərsizliklərin ləğvinə, sivilizasiyalı dövlətlərin inkişaf etmiş demokratiyasından istifadənin həyata keçirilməsinə əsaslı şərait yaratdı. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi, Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bizim vaxtilə itirilmiş dövlətçiliyimizi bərpa etdi, xalqımızın tarixində ilk dəfə demokratik prinsiplər əsasında müstəqil Azərbaycan dövlətinin və hökumətinin yaranmasının əsasını qoydu. Azərbaycan Xalq Cümhuriyyəti Şərq dünyasında ilk dəfə idi ki, demokratik və qanunverici parlament quruculuğunu həyata keçirərək xalqımızın tarixində, dövlət müstəqilliyinin möhkəmləndirilməsi sahəsində qətiyyətli addımlar atmış, ölkənin iqtisadi və siyasi inkişafında, mədəniyyət və xalq təhsili sahəsində, habelə bir çox sosial problemlərin həllində prinsipial əhəmiyyətə malik tədbirlər həyata keçirmişdir.

Heydər Əliyevin sözləri ilə desək, Azərbaycan xalqının çoxəsrlik dövlətçilik tarixi vardır. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması xalqımızın həyatında tarixi hadisə olmuşdur və dövlətçilik salnaməsinin parlaq səhifələridir: "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, İstiqlal Bəyannaməsinin elan olunması böyük zəka, uzaqgörənlik, cəsarət, iradə, qəhrəmanlıq tələb edirdi. Bizim dəyərli siyasi xadimlərimiz həmin gün bu tarixi addımı atdılar".

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Prezident İlham Əliyevin imzaladığı sərəncamda deyilir: "Azərbaycan Xalq Cümhuriyyəti tarixi vəzifəni şərəflə yerinə yetirdi... Azərbaycanın ilk parlamenti və hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi".

Azərbaycan xalqının qeyrət simvolu olan və bugünkü nəsil üçün qəhrəmanlıq salnaməsinin zəngin tarixini xatırladan Azərbaycan Xalq Cümhuriyyəti çox qısa ömür yaşamasına baxmayaraq, şərəfli bir yol keçdi, milli müqəddəratın və tale yüklü problemlərin həll edilməsində mühüm rol oynadı. Azərbaycan Xalq Cümhuriyyətinin xalqımızın qarşısında ən böyük xidməti ondadır ki, o özünün qısa müddətli fəaliyyəti dövründə Azərbaycanın istiqlaliyyətini elan etdi, xalqın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu sübut etdi. Azərbaycan Xalq Cümhuriyyəti tarixi şəraitin, dövrün və zamanın zəruri tələbi nəticəsində bütün

müsəlman Şərqində və türk dünyasında yaranan ilk parlamentli demokratik cümhuriyyət idi. Azərbaycan xalqının böyük ictimai-siyasi xadimi Üzeyir Hacıbəyov yazırdı ki, Azərbaycan Respublikası o zaman Şərqdə və Avropada ən demokratik parlament modelinə malik idi və sağlam bir milliyyət fikri, türklük şüuru üzərində qurulmuşdu.

Bəs Azərbaycan Xalq Cümhuriyyəti hansı tarixi şəraitdə və necə yaranmış, onu reallaşdıran amillər və şərtlər necə meydana gəlmişdi? Əsarət altına salınmış türk-müsəlman xalqlarının milli mənlik şüurunu və qədim dövlətçilik ənənələrini məhv etmək siyasəti yeridən çar Rusiyası Cənubi Qafqazı bu siyasətin ən dəhşətli qanlı qırğın meydanına çevirmişdi. Çarizm öz çirkin məqsədlərini və qəddar siyasətini həyata keçirmək üçün Azərbaycan ərazisində XX əsrin əvvəllərində gah köçürmə tətbiq edir, gah ruslaşdırma və xristianlaşma siyasəti yürüdür, gah da qanlı erməni-müsəlman qırğınları təşkil edirdi. Bir sözlə, çar Rusiyasının milli müstəmləkəçilik siyasətinin ən dəhşətli sınaq meydanına çevrilən Azərbaycan dözülməz ağrılara və dəhşətli qırğınlara sinə gərir və zaman-zaman müstəqillik uğrunda mübarizəsini davam etdirirdi. Xüsusilə, XX əsrin əvvəllərində türk, islam və çağdaş ideyaların geniş intişar etməsi və beləliklə, milli azadlıq hərəkatının güclənməsi Azərbaycan xalqının milli oyanış və milli özünüdərk şüurunu xeyli artırdı. Bu istiqamətdə Azərbaycanın görkəmli ictimai-siyasi fikir nümayəndələri olan Ə.B.Hüseynzadənin, Ə.B.Ağayevin, Ə.M.Topçubaşovun, M.Ə.Rəsulzadənin, N.Nərimanovun, F.X.Xoyskinin, N.B.Yusifbəylinin, Ü.Hacıbəyovun, M.H.Hacınskinin və başqalarının böyük rolu və xidmətləri olmuşdur.

Bu milli ziyalılar əvvəlki sələflərinin dövlətçilik ideyalarını yeni tarixi şəraitdə yorulmadan davam etdirir, xalqın oyanışında geniş fəaliyyət göstərirdilər. Prezident İlham Əliyevin cümhuriyyətin 100 illik yubileyi haqqında imzaladığı Sərəncamda deyilir: "A.A.Bakıxanov, M.F.Axundzadə, H.B.Zərdabi, C.Məmmədquluzadə, M.Ə.Sabir, Əlibəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərdilər".

Rusiyada 1917-ci ildə fevral inqilabı üç yüz illik Romanovlar səltənətinə son qoydu və imperiya ərazisində demokratik hərəkatlara geniş meydan verdi, bununla da ayrı-ayrı millətlərin azadlıq hərəkatının yüksəlişinə əlverişli şərait yaratdı. Azərbaycanın ictimai-siyasi, milli demokratik-inqilabi həyatında dərin dəyişikliklər baş verdi və bu proses getdikcə daha önəmli xarakter almağa başladı. 1917-ci il oktyabr çevrilişindən sonra hakimiyyəti ələ keçirən bolşeviklər 1918-ci ilin yanvarında Müəssisələr Məclisinə toplaşdılar. Cənubi Qafqazdan seçilən nümayəndələr Petroqrada gedə bilmədilər. Buna görə də onlar Tiflisdə Transqafqaz Seyminə toplaşdılar. Transqafqaz Seymində türk-müsəlman fraksiyasını 44 deputat təmsil edirdi. Transqafqaz Seymi Zaqafqaziya

ərazisində ali hakimiyyət orqanı olub bütün daxili və xarici məsələləri həll etməli, yeni dövlət strukturları yaratmalı, millətlərarası mübahisəli və münaqişəli məsələləri ədalətlə həll etməli idi. Yeri gəlmişkən, deyək ki, Transqafqaz Seymi qarşısına qoyduğu məsələlərin demək olar ki, heç birini yerinə yetirə bilmədi və əksinə Zaqafqaziyada erməni-müsəlman münaqişələrinə münbit şərait yaratdı. 1918-ci ilin mart-aprelində Bakıda, Qubada, Şamaxıda və Azərbaycanın digər qəzalarında türk-müsəlmanların amansızcasına məhv edilməsi və azərbaycanlılara qarşı təşkil edilən qətliamlar, qısa müddətə 60 mindən çox dinc adamın amansızcasına öldürülməsi xalqımızın başına gətirilən dəhşətli soyqırımı siyasəti idi. Azərbaycan xalqına qarşı törədilən bu qanlı qırğınların qarşısını almaq və vəhşiləşmiş erməni cəlladlarına cavab vermək üçün türk-müsəlman deputatlar Transqafqaz Seymindən praktik iş görməyi və fəaliyyət göstərməyi tələb etdilər. Seymin erməni deputatları qəsdən işə mane olur, konkret addımlar atmağı ləngidir və əslində türk-müsəlmanların məhv edilməsinə şərait yaradırdılar. Erməni deputatların belə qeyri-müəyyən hərəkətləri təbii ki, gürcü deputatlarını da hiddətləndirirdi. Çünki mübahisəli məsələ olan erməni-gürcü ziddiyyətləri də dərinləşmişdi.

Belə bir şəraitdə Seymin daxilində olan ziddiyyətlər daha da dərinləşdi və onun dağılmasını labüd etdi. Nəticədə 1918-ci il mayın 25-də gürcü nümayəndələri Seymdən çıxdıqlarını bildirdilər və mayın 26-da özlərinin müstəqilliyini elan etdilər.

Yuxarıda deyilənlərdən əlavə 1918-ci il aprelin 25-də daşnak və cani Şaumyanın başçılığı ilə Bakı Xalq Komissarları Sovetinin yaranması və onun anti-Azərbaycan siyasəti nəinki xalqımızın milli ruhunu qıra bilmədi, əksinə müstəqillik uğrunda mübarizə dalğası daha da genişləndi. Artıq xalqın şüuruna belə bir ideya hakim kəsilmişdi ki, müstəqil Azərbaycan dövləti yaratmaq tarixi zərurətdir. Belə bir ideya xalqımızın milli öndərlərinin zaman-zaman apardıqları mübarizə nəticəsində artıq reallığa çevrilirdi.

Transqafqazda yaranmış tarixi şəraiti düzgün və obyektiv qiymətləndirən Seymin türk-azərbaycanlı deputatları praktik addımlar atmağı və tarixi məsuliyyəti öhdələrinə götürməyi başlıca vəzifə bildilər.

Azərbaycan istiqlaliyyətini elan etmək və ilk Azərbaycan hökuməti yaratmaq üçün Zaqafqaziya Seyminin 44 nəfərdən ibarət müsəlman fraksiyasının mayın 27-də Tiflisdə ilk toplantısı keçirildi və hərtərəfli müzakirələrdən sonra belə mürəkkəb bir ictimai-siyasi şəraitdə Azərbaycanın idarə olunması məsuliyyətini öz üzərinə götürmək qərarına gələrək özlərini Azərbaycan Milli Şurası elan etdilər. Azərbaycan Milli Şurası əslində ilk parlament idi. Görkəmli siyasi xadim və publisist, xalqımızın qeyrətli oğlu M.Ə.Rəsulzadə Milli Şuranın sədri seçildi. Mayın 28-də Milli Şura Azərbaycanın

istiqlaliyyəti haqqında Bəyannamə qəbul etdi. Bəyannamədə deyilirdi ki, Azərbaycan demokratik respublika formasında müstəqil və suveren dövlətdir, ali hakimiyyət bütün xalqa məxsusdur, beynəlxalq birliyin bütün üzvlərilə dostluq əlaqələri qurur və öz ərazisində yaşayan bütün xalqların bərabər inkişafına şərait yaradır. ADR milliyyətindən, dini etiqadından, sosial vəziyyətindən, dinindən və cinsindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyinə təminat verir.

Tarixi sənəd olan İstiqlal Bəyannaməsinə ilk dəfə yüksək qiymət verən ümummilli lider Heydər Əliyev demişdir ki, bu Bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirirdi. Milli dövlətçiliyimizin inkişafında yeni tarixi bir dövr yarandı.

Cəmi 6 bənddən ibarət olan və əslində Azərbaycan Xalq Cümhuriyyətinin Konstitusiyası rolunu ifadə edən İstiqlal Bəyannaməsi bütün türk-müsəlman dünyasında demokratik idarəetmə üsulunu - parlamentli Respublikanın yaradılmasını xəbər verirdi. Azərbaycan Xalq Cümhuriyyəti bu dəyərli sənədlə özünü həm daxili və həm də xarici siyasət sahəsində demokratik və humanitar məqsədi olan bir dövlət kimi müəyyənləşdirdi. ADR-in yaradılması Azərbaycan xalqının ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında böyük əhəmiyyəti olan mütərəqqi hadisə, tarixi inkişaf prosesinin qanunauyğun nəticəsi, milli qurtuluş uğrunda uzun və məşəqqətli mübarizənin çox mühüm mərhələlərinin məntiqi yekunu idi.

İstiqlal Bəyannaməsinin qəbulundan sonra Milli Şuranın həmin iclasında Fətəli xan Xoyskinin başçılığı ilə Azərbaycan hökumətinin tərkibi təsdiq olundu. İlk Azərbaycan Müvəqqəti Hökumətinin tərkibinə Xosrov Paşa bəy Sultanov, Məmməd Həsən Hacınski, Nəsib bəy Yusifbəyov, Xəlil bəy Xasməmmədov, Məmməd Yusif Cəfərov, Əkbər ağa Şeyxülislamov, Xudadat bəy Məlikaslanov və Cəmo bəy Hacınski daxil oldular. Mayın 30-da radioteleqraf vasitəsilə Azərbaycanın istiqlaliyyəti barədə dünyanın bütün siyasi mərkəzlərinə - London, Paris, Vaşinqton, İstanbul, Berlin, Madrid, Moskva, Roma, Vyana, Buxarest, Tokio, Haaqa, Kopenhagen, Stokholm şəhərləinrə rəsmi bəyanat göndərildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyev demişdir: "…Azərbaycan Xalq Cümhuriyyəti Şərq müsəlman aləmində ilk dəfə Azərbaycanda demokratik hökumət yaratmış…, müstəqilliyin əsasını qoymuşdur…".

Azərbaycan Xalq Cümhuriyyətinin yaranması bir çox səciyyəvi cəhətlərinə, xarakterik əlamətlərinə və mahiyyətinə görə milli tariximiz üçün olduqca əhəmiyyətlidir. Əvvəla, müstəqillik elan edilməklə Azərbaycan xalqı böyük bir bəladan qurtardı; itirilmiş milli

dövlətçiliyimiz bərpa edildi; bu dövrdə yaranmış milli respublikalar içərisində ADR Şərqdə, islam və türk dünyasında ilk demokratik respublika üsul-idarəsi idi; ADR Azərbaycanın hüdudlarında olan milli ərazimizə sahib çıxa bildi; Azərbaycanın müstəqilliyini elan etməklə ADR beynəlxalq münasibətlərin iştirakçısına və beynəlxalq hüququn subyektinə çevrildi; ADR böyük əhəmiyyətə malik olan milli dövlət quruculuğu tədbirləri həyata keçirdi, dövlət atributları və dövlət strukturları yaratdı, formalaşdırdı, milli dövlətçiliyi inkişaf etdirdi.

İlk milli hökumət quruldu, Dövlət bayrağı, himni və gerbi, parlament, milli ordu yaradıldı, ana dili dövlət dili elan edildi; maarif, mədəniyyət, təhsil milliləşdirildi, Bakı Dövlət Universiteti yaradıldı, ölkənin sərhədləri müəyyənləşdirildi, 113,9 min kv. km əraziyə malik oldu, milli valyuta buraxıldı, xarici ölkələrdə nümayəndəliklər yaradıldı və s.

Heydər Əliyevin dediyi kimi, Azərbaycan Xalq Cümhuriyyəti mürəkkəb ictimai-siyasi şəraitdə demokratik dövlət quruculuğu, dövlətçilik atributları və milli dövlətçilik ənənələrinin bərpası işində fundamental tədbirlər həyata keçirmiş və bu istiqamətdə böyük rol oynamışdır. Cəmi 23 ay ömür yaşamasına baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti qısa bir zamanda milli dövlət quruculuğu istiqamətində fundamental əhəmiyyətə malik tədbirlər həyata keçirdi.

Gəncənin və Cəbrayılın tarixi adları özünə qaytarıldı. İyulun 15-də Fövqəladə Təhqiqat Komissiyasının yaradılması haqqında qərar verildi. Bununla əslində Azərbaycan Milli Təhlükəsizlik sisteminin yaradılmasının əsası qoyuldu. Avqustun 1-də hərbi mükəlləfiyyət haqqında qərar qəbul olundu. Avqustun 23-də Azərbaycan vətəndaşlığı haqqında fərman verildi. Noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz olundu. Dekabrın 7-də Hacı Z.Tağıyevin qızlar məktəbinin binasında (hazırda Əlyazmalar İnstitutu) parlamentin açılışı oldu. Bu təntənəli açılışda böyük ictimai və siyasi xadim M.Ə.Rəsulzadə geniş və parlaq nitq söylədi, çıxışını "Bir kərə yüksələn bayraq bir daha enməz" sözləri ilə bitirdi. Bu, müsəlman Şərqində ən demokratik prinsipləri özündə birləşdirən və yüksək səviyyədə formalaşan ali qanunverici parlament idi. Çox mürəkkəb bir tarixi şəraitdə fəaliyyətə başlayan Azərbaycan parlamenti qısa müddətdə bir çox qanun və qərarlar qəbul etdi. Azərbaycan Parlamentinin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanunun xalqımızın milli-mənəvi və mədəni tarixində çox böyük əhəmiyyəti oldu. Sonralar Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, ancaq Bakı Dövlət Universiteti cümhuriyyət ideyalarının

yayılması və təbliğində, onun yaşamasında misilsiz xidmətlər göstərdi və bu gün də göstərir.

Azərbaycan Cümhuriyyətinin parlamenti və hökumətinin qarşısında duran bir nömrəli vəzifə müstəqil və milli ordu yaratmaqdan ibarət idi. Çünki milli ordunu yaratmadan ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq qeyri-mümkün idi. Xüsusilə, erməni daşnakları tərəfindən işğala məruz qalan Azərbaycan torpaqları, habelə mübahisəli ərazi məsələləri o zaman ciddi problemlərdən biri, silahlı toqquşmaların başlıca obyekti idi. Onu da qeyd etməliyik ki, belə bir ordunu yaratmaq çox çətin idi. Əvvəla, ona görə ki, çarizm əsarətinin xalqımıza vurduğu ən böyük zərbə, şübhəsiz ki, bu müddət ərzində azərbaycanlıların orduya cəlb edilməməsi idi ki, bu baxımdan da milli ordunu qısa vaxt ərzində yaratmaq və komplektləşdirmək ciddi çətinliklərlə qarşılaşdı. İkincisi, Azərbaycanda hərbi işi bilən milli kadrlar çatışmırdı. Buna görə də ordunu təşkil etmək çox çətin idi. Ancaq ordusuz da Azərbaycan Cümhuriyyəti öz müstəqilliyini qoruyub saxlaya bilməzdi. Çox çətin olsa da bu işin təşkili görkəmli Azərbaycan generalları olan Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskiyə həvalə edildi, onlar çox böyük sürətlə və cəsarətlə milli ordunun yaradılmasına başladılar. Bu işdə qardaş türk zabitlərinin təmənnasız köməyini xüsusi qiymətləndirmək gərəkdir. Artıq 1919-cü ilin axırlarında iyirmi beş minlik Azərbaycan ordusu, iki piyada və bir süvari diviziya yaradılmışdı. ADR-in Hərbi Nazirliyi 1920-ci ildə şəxsi heyətin 40 minə çatdırılmasını planlaşdırmışdı.

Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı Gəncəyə köçürüldükdən sonra çox böyük sürətlə Milli Ordunun yaradılmasına başlandı. İyunun 19-da Azərbaycan hökumətinin yeni tərkibi təsdiq olundu və Azərbaycan korpusu Əlahiddə Azərbaycan Korpusu adlandırıldı, sonradan iyulun əvvəlində Qafqazın 5-ci türk diviziyası ilə birləşdirilərək general-leytenant Nuru paşanın komandanlığı altında Qafqaz İslam Ordusu adlandırıldı.

Qafqaz İslam Ordusu uğurlu hərbi əməliyyatlar keçirərək iyulun 2-də Göyçayın şərqində olan bütün kəndləri, iyulun 6-da Ağsu, iyulun 10-da Kürdəmir bölgələrini azad etdi. İyulun sonlarında Şamaxı, Qarasu, Hacıqabul, Ələt və Sanqaçal, avqustun əvvəlində Quba azad edildi. Milli Ordumuz Bakıya yaxınlaşdıqca düşmən daha da azğınlaşır və döyüşlər şiddətlənirdi. Ancaq Milli Ordumuz qarşıya qoyulan məqsədə - Bakının azad edilməsinə hökmən nail olmalı idi. Çünki Bakı düşmən əlində idi. Avqustun 5-6-da ağır döyüşlər oldu və şiddətli döyüşlə Bibiheybət, Badamdar azad edildi, Milli Ordu hissələrimiz "Volçix vorotu" (Qurd qapısını) ələ keçirdi və sürətlə Bakıya daxil oldu. Bakı əhalisi milli ordu hissələrini və ona kömək edən türk əsgər və zabitlərini duz-çörəklə, sevinclə qarşıladı. Xilaskar türk ordusu hərbi əməliyyatlar tarixinə yeni bir zəfər yazdı.

Qeyd etməliyik ki, yenicə yaradılmasına və az təcrübəsinə baxmayaraq, Azərbaycan Cümhuriyyətinin milli ordusu 1918-ci ilin yayında Şaumyanın və tayqulaq Andranikin qaniçən daşnak ordusunu darmadağın etdi ki, bu döyüşün də Azərbaycan hərb tarixində müstəsna əhəmiyyəti oldu. Bakının azad edilməsi Azərbaycan Xalq Cümhuriyyətinin tarixi müqəddəratında və xalqımızın şərəfli tarixində çox böyük strateji əhəmiyyətə malik olan hərbi-siyasi hadisə oldu. Zənnimizcə, AXC-nin yaranması şərəfli tariximizdə necə böyük əhəmiyyətə malikdirsə, Bakının azad edilməsi də o qədər böyük əhəmiyyətli hadisədir. Sentyabrın 17-də AXC-nin paytaxtı Gəncədən Bakıya köçdü. Bundan sonra AXC-nin hakimiyyətinin Azərbaycanın hər yerində bərqərar olmasına əlverişli şərait yarandı və milli dövlət quruculuğu istiqamətində fəaliyyətini daha da genişləndirdi. 1918-ci il noyabrın 9-da AXC-nin dövlət bayrağı üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli bayraqla əvəz edildi. M.Ə.Rəsulzadə deyirdi ki, Azərbaycan bayrağındakı mavi rəng - türklüyü, yaşıl rəng - müsəlmanlığı, al rəng - təcəddüd və çağdaşlaşmanı bildirir ki, bu da Ziya Göyalpın "Türk millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm" düsturunu ifadə edirdi.

1918-ci il dekabrın 7-də Azərbaycan parlamentinin təntənəli açılışı əsl bayramı xatırladırdı. Cəmi 17 ay fəaliyyət göstərməsinə baxmayaraq, Azərbaycan parlamenti özünün demokratikliyini, həyatiliyini və yüksək işgüzarlıq qabiliyyətini sübut etdi. O göstərdi ki, Azərbaycan xalqı parlament idarəçiliyi səviyyəsinə yüksəlmişdi. O vaxt Azərbaycan xalqı bütün müsəlman Şərqində yeganə parlamentli respublika idi.

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cü ildə açdığı Bakı Dövlət Universiteti xalqımızın mədəni həyatında əlamətdar hadisə idi. Xalqın maariflənməsi işinə xüsusi diqqət verən ADR qısa müddətdə 637 ibtidai məktəb, 23 orta ixtisas məktəbi, 6 kişi, 4 qadın gimnaziyası, 5 realnı məktəb, 3 müəllimlər seminariyası, 3 qadın tədris müəssisəsi açdı. Bu tədris müəssisələrinin hamısı dövlət hesabına işləyirdi.

ADR-in xarici siyasət sahəsində fəaliyyəti daha geniş olmuş, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün dünya dövlətləri tərəfindən tanınmasına nail olunmuşdur. Qısa müddətdə ADR-in Tiflisdə, İrəvanda, İstanbulda, Tehranda, Kubanda və Donda diplomatik nümayəndəlikləri yaradıldı, Batumda və Ukraynada Azərbaycanın baş konsulluqları, Petrovskda və Krımda isə konsul agentlikləri fəaliyyətə başladı. Bakıda Gürcüstanın və Ermənistanın diplomatik nümayəndəlikləri, İranın baş konsulluğu, Belçika, Hollandiya, Yunanıstan, Danimarka, İtaliya, Fransa, İsveçrə dövlətlərinin konsulluqları, İngiltərənin, ABŞ-ın və Ukraynaın vitse konsulluqları, Litvanın, Polşanın və Finlandiyanın konsul agentlikləri var idi.

Azərbaycan Xalq Cümhuriyyətinin beynəlxalq diplomatiya sahəsində qazandığı ən böyük zəfər milli dövlətimizin 1920-ci il yanvarın 11-də Antanta Ali Şurası tərəfindən de-fakto tanınması oldu. Bu şad xəbəri eşidən Azərbaycan xalqı hökumətin qərarı ilə yanvarın 17-də ölkə ərazisində bayram atəşfəşanlığı keçirdi.

Azərbaycan xalqının milli azadlıq hərəkatının yekunu kimi yaranan ADR xalq hakimiyyətinin respublika formasını, siyasi inkişafın Qərbdə böyük uğurlara nail olmuş sosial-demokratiya istiqamətini, ümumbəşəri tərəqqinin həm Qərb və həm də Şərq meyillərini özündə birləşdirirdi. ADR-in yaranmasında, formalaşmasında və milli-dövlət quruculuğu istiqamətində həyata keçirilən tədbirlərində M.Ə.Rəsulzadənin, F.X.Xoyskinin, N.B.Yusifbəylinin, Ə.M.Topçubaşovun, M.H.Hacınskinin, X.Xasməmmədovun, Ə.Şeyxülislamov, M.Y.Cəfərovun, X.Sultanovun, C.Hacınskinin, S.Mehmandarovun, Ə.Şıxlinskinin misilsiz və əvəzsiz xidmətləri olmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə desək, Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları olan o böyük insanları böyük minnətdarlıq hissi ilə yad edirik: "Onların parlaq həyatı, böyük fəaliyyəti və Azərbaycan xalqı qarşısında xidmətləri heç vaxt unudulmayacaqdır".

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci il aprelin 28-də XI işğalçı ordunun hücumu nəticəsində süqut etdi. Azərbaycan Xalq Cümhuriyyəti qısa ömür yaşasa da, xalqımızın yaddaşında əbədi iz qoydu, milli dövlətçilik ənənələrinin XX əsrin sonunda yenidən bərpa edilməsində siyasi və mənəvi bir məktəb oldu, xalqımızda azadlıq və müstəqillik fikirlərini daha da gücləndirdi, milli dövlət atributlarının yaradılmasında qətiyyətli tədbirlər həyata keçirdi.

Azərbaycan Demokratik Respublikasının bütün islam aləmində ilk cümhuriyyət, bütün türk dünyasında ilk demokratik parlamentli respublika kimi təşəkkülü, ümumşərq və ümumtürk əhəmiyyəti kəsb etməsi M.Ə.Rəsulzadənin və onun məsləkdaşlarının adı ilə bilavasitə bağlıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müstəqil Azərbaycan Respublikası ümummilli maraqlarımıza cavab verən uğurlu daxili və xarici siyasət aparır, beynəlxalq əlaqələrini və diplomatik münasibətlərini qətiyyətlə davam və inkişaf etdirir.

Ümummilli lider Heydər Əliyev demişdir: "Biz bu gün iftixar hissi ilə deyə bilərik ki, bütün çətinliklərə baxmayaraq Azərbaycan Xalq Cümhuriyyəti iki il müddətində çox böyük işlər görmüş, Azərbaycanın müstəqil gələcəyinin əsasını qoymuşdur".

Möhtərəm Prezident İlham Əliyevin sözləri ilə desək, bu gün Azərbaycan tam mənada müstəqil dövlətə çevrilmişdir: "Xalqımızın ən böyük sərvətlərindən biri də odur ki, bu gün Azərbaycan rəhbərliyi tam mənada müstəqil siyasət aparır. Bu siyasət yalnız və yalnız Azərbaycan xalqının milli maraqlarına xidmət edir. Biz bundan sonra da Azərbaycan xalqının milli maraqlarına qulluq edəcək, Azərbaycanın daha da inkişafına xidmət edəcəyik".

Müqəddəs amallar uğrunda mübarizə aparan ADR-in tarixi ənənələri bu gün qətiyyətlə davam və inkişaf etdirilir.